**Cəlilabadda fəaliyyət göstərən ictimai iaşə obyektində keçirilən yoxlamaya dair məlumat**

**(6 mart 2026)**

Cəlilabad rayonu, Göytəpə şəhəri, Qurtuluş prospektində yerləşən çayxanada Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən keçirilmiş yoxlama zamanı normativ hüquqi aktların tələblərinin pozulduğu aşkarlanıb.

Belə ki, ictimai iaşə obyektinin sanitar-gigiyenik tələblərə cavab vermədən fəaliyyət göstərdiyi, sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, qida məhsulları ilə təmasda olan səthlərin yuyulabilən və korroziyaya davamlı materialla üzlənmədiyi, havalandırma sisteminin quraşdırılmadığı və digər nöqsanlar müəyyən edilib.

Faktla bağlı inzibati protokol tərtib edilib və ictimai iaşə obyektinin fəaliyyəti məhdudlaşdırılıb.